# I Qəbələ Mürəbbə Festivalı

## Festivalda 11 rayonun mürəbbə ustaları, 4 xarici ölkənin Azərbaycandakı səlahiyyətli səfiri, xarici turistlər, rayonun və yaxın regionların yüzlərlə, minlərlə sakinləri iştirak etmişlər





Avqust ayı Qəbələ payonu üçün ən əlamətdar günlərlə və bir sıra ictimai-siyasi hadisələrlə zəngin oldu. Bu baxımdan Qəbələnin 2013-cü il üçün MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə əlaqədar dövlətlərarası proqramın təntənəli açılış mərasimini, V Qəbələ Beynəlxalq Musiqi Festivalını, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III zirvə toplantısı çərçivəsində xarici işlər nazirlərinin görüşü və əməkdaşlıq protokolunun imzalanması mərasimini, Şuranın III Zirvə toplantısını, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bölgəmizə səfərini və Türkiyə, Qazaxıstan, Qırğızıstan prezidentləri ilə görüşlərini, ötən həftə isə I Qəbələ Mürəbbə Festivalını qeyd etmək olar.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən daha bir ilk festivalın hazırlanması üçün xeyli iş görülmüşdür. Belə ki, təşkilat komitəsi yaradılmış, iş planı tərtib olunmuş, 11 nəfərdən ibarət münsiflər heyəti yaradılmışdır. Münsiflər heyətinə ixtisaslaşmış mütəxəssislər, ekspertlər cəlb olunmuşdur.

Festivala Qəbələ, Şəki, Balakən, Qax, İsmayıllı, Ağdaş, Göyçay, Ucar, Zərdab, Yevlax və Oğuz rayonundan mürəbbə bişintisində təcrübəsi və marağı olan həvəskarlar dəvət olunmuşdular.

Festivalda Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Fikrət Babayev, Azərbaycan Respublikası Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov, «Qafqaz» resort otelin icracı diorektoru Əli Çaylak iştirak edirdilər.

Festivala iştirakçı rayonların bədii özfəaliyyət kollektivəri, xalq tətbiqi sənət ustaları da dəvət olunmuşdular.

Avqustun 24-də hələ səhər tezdən rayonun turizm məkanı sayılan ən mənzərəli guşədə, əzəmətli dağlarla əhatələnən Qəbələ «Fitnes» Sağlamlıq Mərkəzində böyük qələbəlik vardı. Festival iştirakçıları yerlərini tutur, çal-çağır sədaları ətrafa yayılırdı. Tədbirin açılış mərasimi saat 11.00-da oldu. Mərasimdə rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova festivala hazırlıqla əlaqədar çıxış etmək üçün ilk sözü Qəbələ rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovaya verdi. Ə. Osmanova festival iştirakçılarına son illərdə respublikamızda sosial-iqtisadi, humanitar sahələrdə əldə edilən uğurlardan, respublikamızda ilk olaraq belə bir festivala görülən hazırlıq işlərindən, onun əhəmiyyətindən danışdı və iştirakçılara uğurlar arzuladı **(çıxış bugünkü sayımızın 4-5-ci səhifələrində dərc olunur).**

Sonra söz Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Fikrət Babayevə, Milli Kulinariya Mərkəzinin rəhbəri Tahir Əmiraslanova, «Qafqaz» resort otelin icracı direktoru Əli Çaylaka verildi. Çıxış edənlər qeyd etdilər ki, müxtəlif təbii məhsullar, şirniyyatlar, ümumiyyətlə kulinariya festivalları dünyanın bir sıra ölkələrində keçirilir. Azərbaycanda da alma, nar bayramları keçirilir. Lakin mürəbbə festivalı ölkəmizdə birinci festivaldır. Bu təşəbbüsdə «Qafqaz» resort otelin icraçı direktoru Əli Çaylakın, rayon icra hakimiyyətinin xüsusi əməyi vardır. Bu günki iştirakçılarda olan əhval-ruhiyyə isə onu göstərir ki, festival bundan sonra da hər il davamlı olacaq, gələcəkdə daha geniş bölgələrdə, ölkələrdə əks-səda doğuracaqdır.





Mərasimdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək festival iştirakçılarını təbrik etdi, bu ilk və əlamətdar tədbirin davamlı olmasına və fəaliyyətinə uğurlar arzuladı. Sonra festivalın açılışının qırmızı lenti kəsildi.

**(Ardı 4-cü səhifədə).**